Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Avropa Oyunları Azərbaycanın təqdimatı olacaq

## Dünya bizə tərəf gəlir, bizim uğurlarımızı görür

**Azərbaycan İlk Avropa Oyunlarına tam hazırdır və xalqımız bu əlamətdar hadisənin başlanmasını səbirsizliklə gözləyir. 2012-ci ilin dekabrın 8-də Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında Oyunların Bakıda keçirilməsi ilə bağlı tarixi qərar verildikdən sonra ölkəmizin hər yerində bu möhtəşəm hadisəyə hazırlıq iki il ərzində ümumxalq vüsəti aldı.**

Azərbaycan vətəndaşı üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışdı. Düz iki ildir ki, bütün dünyanın diqqəti yurdumuza yönəlib. Ölkədə gedən sürətli inkişafa, nəhəng idman qurğularının inşasına, oyunların yüksək səviyyədə təşkili üçün mükəmməl şəkildə aparılan hazırlıq prosesinə şahiddir. Elə Azərbaycanın Avropa ölkələri arasında lider dövlətlərdən olması, iqtisadi gücə yiyələnməsi və dünya arenasında qazandığı siyasi uğurun nəticəsidir ki, xalqımıza böyük etimad göstərilib.

Avropa Oyunları zamanı Azərbaycanımıza dünyanın hər yerindən qonaqlar gələcək. İndidən Bakıya axışan izdihamın şahidiyik. Dünya bizə tərəf gəlir, bizim uğurlarımızı görür, Xəzərin qoynuna aldığı Odlar Yurdunun füsunkar gözəlliyi ilə yaxından tanış olur. Tarixin daş yollarının dar cığırlarında qədim şəhərin küçələrində addımlayır, bəşəriyyətin nadir memarlıq nümunələrindən sayılan qədim və yeni müasir orijinal üslubda inşa edilmiş Şərq ornamentləri ilə Qərb elementlərinin vəhdətindən sintez olunan unikal tikililəri (Heydər Əliyev Mərkəzi, Müasir İncəsənət Muzeyi və s.), göydələnləri (Üç Alov Kompleksi) seyr edir. Dünya sivilizasiyasına dəyərli töhfələr verən Azərbaycanın əsrarəngiz təbiətindən ilham alır, hər kəndi-kəsəyi şəhərə çevrilən bölgələri dolaşır. Ana yurdumuza, vətənimizə gələn əcnəbilər, xarici turistlər burada gördüklərinə heyran qalır və öz təəssüratlarını bildirirlər. Biz hər gün Azərbaycan Televiziyasında şəhərimizin qonaqlarının Bakı haqqında, ölkəmizlə bağlı neçə-neçə xoş sözlərini, zəngin təəssüratlarını eşidirik.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi qərarından sonra Azərbaycan Televiziyası və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi başda olmaqla yaradıcı heyəti hamılıqla bu el tədbirinə ürəkdən qoşuldu, cani qəlbdən göz axtarışına, söz yarışına başladı. Bu iki il ərzində görülən işlər televiziya ilə işıqlandırıldı. Bütün idman qurğularının təməlindən sonuna kimi anbaan görüntülər yayıldı. Qısa zaman kəsiyində inşa olunan nəhəng tikililərin əzəmətli görünüşünü ekranlarda canlandırdı.

Ana Televiziyada paytaxtın və bölgələrin təsviri, inkişafın bariz nümunəsi, sürətli tərəqqinin, ölkənin ayrı-ayrı guşələrindən real görüntülərin əks olunduğu sinxronsuz musiqili videosüjetlərin hər biri Azərbaycan vətəndaşında qürur hissi doğurur. "İşıqlı Bakı gecələri"ni, "fontanlar simfoniyası"nı, "uca dağların qoynunda yaradılan insan zəkasının qüdrəti"ni, "regionların sayrışan işıqları"nı və s. görəndə "bura mənim vətənimdir", deyə qəlbən sevinir, için-için öyünürük. Müasir Azərbaycanın bu gününü əks etdirən bu görüntülər həm də gələcəyimiz üçün sənədli materiallardır.

Yaradıcı heyət tək fond materiallarını, səs arxivini və videotekanı zənginləşdirmir, süjetlərlə, ayrı-ayrı verilişlərlə kifayətlənmir və həm də oxuculara mətbuatın dili ilə dəyərli faktları çatdırmağa çalışır. 2006-cı ildən fəaliyyətə başlayan, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin təsisçiliyi ilə rəngli və müasir standartlarla çap olunan, ölkədə ilk milli teleradio jurnalı "TV plyus" dərgisinin işıq üzü görən hər bir sayı Azərbaycanın mədəni və siyasi həyatında baş verən əhəmiyyətli hadisələrin geniş təhlil olunduğu nadir nəşrlərdən biridir. Bu jurnalın hər buraxılışında böyük bir hadisənin mahiyyətindən bəhs olunur. Ziyalıların fikirlərinə yer verilən dərgidə elm, sənət yollarında izi olan insanların hadisəyə baxışı öz əksini tapır.

"TV Plyus" dərgisinin növbəti buraxılışında Bakıda keçiriləcək İlk Avropa Oyunları ilə bağlı geniş məlumat verilib. "Beş fraqment: İlk Avropa oyunlarının qitənin böyük şəhərlərində təqdimatı" adlı bölümdə müxtəlif ölkələrdə keçirilən tanıdım mərasimlərindən yazılıb.








2014-cü ilin iyulunda beynəlxalq aləmdə ilk dəfə Fransanın Kann şəhərindən başlayan, sentyabrda Yunanıstanın paytaxtı Afinanın "Akropol" muzeyində, oktyabrda Almaniyanın Berlin şəhərində, noyabrda İstanbulun "Çırağan" sarayında və yenidən Parisdə davam edən təqdimat mərasimlərindən geniş materiallar təqdim olunub.

"TV Plyus" jurnalında Azərbaycanın birinci xanımı, İlk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın təqdimat mərasimlərindəki çıxışları, tədbirlərin fotoları verilib. Oyunların ölkəmizdə keçirilməsinin əhəmiyyətinə toxunulub, dünyanın tanınmış insanlarının tanıtım mərasimlərinə qatılması və onların Azərbaycanla bağlı fikirləri işıqlandırılıb. Mehriban xanımın hər bir gecədə səsləndirdiyi fərqli-fərqli çıxışlarda ölkəmizin iqtisadi yüksəlişindən, Azərbaycanın siyasi uğurlarından, mədəniyyətin inkişafı istiqamətində görülən işlərdən, özünəməxsus incilər müəllifi olan yurdumuzun sənətkarlıq xüsusiyyətlərindən və ən başlıcası, idmana göstərilən xüsusi diqqətdən söhbət açılıb. İlbəil Olimpiya Oyunlarından idmançılarımızın zəfərlə dönüşündən, qazanılan medalların sayının artmasından, Azərbaycanda idmanın bütün növləri üzrə obyekt və qurğuların tikintisindən danışan Mehriban Əliyeva, Odlar Yurdunda idman siyasətinin prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb. Təşkilat Komitəsinin sədri bir daha bəyan edib: "...Şübhəsiz ki, Avropa idman tarixində yeni səhifə açacaq və İlk Avropa Oyunlarının - tarixdə birinci oyunlar kimi qalacaq yarışları hazırlamaq, qəbul etmək və keçirmək Azərbaycan üçün böyük şərəf və məsuliyyətdir..." Oyunların tanıtımı mərasimlərində Təşkilat Komitəsinin əzmkar fəaliyyəti, dünya güclülərini bir araya toplayacaq idman yarışının yüksək səviyyədə təşkili, bir sözlə, göstərilən böyük etimadı doğrultmaq və dünyaya özünü olduğu kimi təqdim etmək baxımından Azərbaycanın gərgin çalışdığı mesajı verilib.

"TV Plyus" jurnalı oxucuları Avropa Olimpiya Oyunlarının keçiriləcəyi arenalarla da tanış edib. "İdman-Azərbaycan" telekanalının əməkdaşlarının hazırladığı məqalələrdə yeni tikilən və oyunların təşkili üçün nəzərdə tutulan obyektlərin fotoları və haqqında geniş məlumatlar əksini tapıb. Milli Olimpiya Stadionu, Gimnastika Mərkəzi, Bakı Su İdman Mərkəzi, Voterpol, Basketbol, Çimərlik və Heydər Əliyev adına İdman Arenaları, Bakı Kristal zalında voleybol, boks, karate, taekvondo və qılıncoynatma yarışlarının təşkili üçün yaradılan zallar, Tofiq Bəhramov adına Respublika Stadionu, Dağ Velosipedi Parkı, Bakı İdman Zalı, Bakı Atıcılıq Mərkəzi, BMX Veloparkı, "Kür" İdman və Avarçəkmə Mərkəzindən ətraflı bəhs olunub.

"TV Plyus" jurnalında yazılan, milli varlığımızı təsdiqləyən bu məqalələrin hər birinin özəyində dayanan qiymətli faktlar siyasi uğurların nəticəsində qazanılan BÖYÜK QƏLƏBƏDƏN, Azərbaycanın dünyaya özünü yeni mənada təqdimatından soraq verir.

Cəmi bir neçə gündən sonra dünyanın əksər KİV-i, televiziyaları Azərbaycanda keçirilən oyunları canlı translyasiya edəcək. Hətta Afrika ölkələrinin, Latın Amerikasının tamaşaçıları da oyunları izləmək imkanı qazanıb. Avropanın qeyd edəcəyi bu idman bayramında 6000-dən artıq idmançı ölkəsinin bayrağını yüksəyə qaldırmaq uğrunda mübarizə aparacaq. Xalqımız isə böyük həvəslə gözlədiyi bu mötəbər yarışı Ana Televiziyadan, AZTV-dən və idman ölkəsi olan Odlar Yurdunun "İdman-Azərbaycan" telekanalından seyr edəcək. Ölkəmiz "Bak? 2015" I Avropa Oyunlarında 291 idmançı ilə təmsil olunacaq. İlk Avropa Oyunlarının Bakıda keçirilməsi ən böyük zəfərimizdirsə, bu yarışda gücünü sınayacaq oğul və qızlarımızın qazanacağı medallar növbəti uğurlarımız olacaq. QOLUNUZA QÜVVƏT, AZƏRBAYCAN İDMANÇILARI! Biz sizi televiziyamızdan tanıyacaq, alqışlayacaq və sizinlə ucalacağıq.

**Şəlalə Məhyəddinqızı**
**Azərbaycan Radiosunun əməkdaşı**



***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***